Yeni kitablar

Cavanşir Xıdırov. Məkkə, Bakı, "Nurlar", 2005,—96 səh.

Şərqşünas-alim Cavanşir Xıdırovun bu kitabı müsəlmanların müqəddəs saydıqları üç şəhərdən (Məkkə, Mədinə, Qüds) birinə —Allah evi—Kəbənin yerləşdiyi Məkkəyə həsr olunmuşdur. Kitabı oyuxan hər kəs Məkkənin ümumi tarixi, islam dinində yeri, Peyğəmbərimiz Məhəmməd əleyhissəlamın həyatındakı rolu və qısmən də müasir vəziyyəti ilə tanış olacaq.

Məkkə bütün İslam dünyasının qibləgahıdır. Eyni zamanda ən böyük və müqəddəs ziyarətgahıdır. İslam dininə görə hədd-buluğa çatmış, əqli və fiziki cəhətdən sağlam, azad, maddi baxımdan təminatlı hər bir müsəlman ömründə heç olmasa bir dəfə Makkəni ziyarət etməyi özünə borc saymalıdır.

Məkkə həm tarixi, həm də dini baxımdan əlahiddəlik qazanmışdır. O, 14 əsrdən çoxdur ki, nəhəng coğrafi regionun — İslam dünyasının diqqətini daim özünə cəlb edir. Odur ki, bu müqəddəs şəhər haqqında məlumat vermək müəllif saysız-hesabsız insanın sonu bitməyən marağını ödəmiş olur.

Maarifə Hacıyeva. Folklor poetikası, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 2006, 240 səh.

Yazılı ədəbiyyat öz inkişafının bütün mərhələlərində folklorun tükənmək bilməyən zəngin söz xəzinəsindən qidalanmış, onun kökləri üzərində qol-budaq atmışdır. Bu təbii proses qədim dövrlərdə olduğu kimi, çağdaş Azərbaycan ədəbiyyatında da öz axarı ilə inkişaf etmiş və dəyərli töhfələrini vermişdir.

Çağdaş poeziya da qədim ədəbiyyat kimi folklorla möhkəm tellərlə bağlanmış, xalq yaradıcılığına məxsus bir sıra xüsusiyyətləri mənimsəmişdir. Çağdaş Azərbaycan ədəbiyyatının bir sıra görkəmli nümayəndələrinin yaradıcılığında folklorla əlaqə və bağlılıq məsələləri barədə indiyədək bir sıra tədqiqat əsərləri yazılmışdır. Filologiya elmləri doktoru, professor Maarifə Hacıyevanın bu kitabında isə folklor və çağdaş ədəbi proseslə bağlı məsələlər ilk dəfə bütövlükdə, ümumiləşdirilmiş şəklidə, sistemli halda əhatə edilir və istər lirika və epik poeziya nümunələri, istərsə də mənzum dram əsərləri əsasında araşdırılır. Kitabda əsasən XX əsr Azərbaycan poeziyasının tanınmış nümayəndələri S.Vurğun, S.Rüstəm, R.Rza, B.Vahabzadə, M.Araz kimi söz ustalarının lirik şeir yaradıcılığını folklorla bağlayan cəhətlər üzərində dayanan müəllif yeri gəldikcə bədii varislik məsələsinə də toxunur, Xaqani Şirvani, Şah İsmayıl Xətai, Məhəmməd Əmani və digər klassik sənətkarların yaradıcılığında da bu xüsusiyyətin qabarıq şəkildə özünü göstərdiyini açıqlayır.

Kitabda çağdaş poeziyanın "Kitabi-Dədə Qorqud" dastanları ilə bağlılığı məsələsi də yığcam şəkildə işıqlandırılır. Müəllifin çağdaş poeziyamızda qəhrəman axtarışı probleminin folklorla bağlılığı haqqında fikirləri də maraq doğurur.

Kitabın elmi rekdaktoru filologiya elmləri doktoru Şamil Salmanovdur.

M.Qasımov, İ.Əhmədov, İ.Ramazanova, S.Gürzəliyev, Ş.Balayeva, F.Tağızadə. Məktəblilərin gigiyena və sağlamlıq üzrə biliyini artırmaq üçün metodik tövsiyələr, Bakı, "Qismət", 2006, —88 səh.



Azərbaycan Respublikasının quruculuq dövrünün çox mühüm cəhətlərindən biri də onun təhsil sisteminin inkişaf etdirilib təkmilləşdirilməsindən ibarətdir. Burada qarşıya qoyulan əsas məqsəd keçmiş sovet təhsil sistemi əsasında qabaqcıl Avropa və dünya ölkələrinin təhsildə olan mütərəqqi və müasir elementlərini dövlətin təhsil siyasətinə daxil etməklə yeni təhsil modelinin yaradılması və ölkədə hərtərəfli sağlam, savadlı, yetkin, yüksək intellektə malik nəsil yetişdirməkdən ibarətdir. Sağlam genofondun yetişdirilməsi probleminin əsası isə orta təhsil sistemində başlayır. Ona görə də orta məktəblərdə uşaqların və gənclərin fiziki tərbiyəsi, onlara sağlam həyat tərzinə aid bilik və vərdişlərin aşılanması, təlim və tərbiyə məsələlərində gigiyenik biliklərə istinad edilməsi pedoqoji prosesin mühüm aspektlərindən birinə çevrilməlidir. Bu məsələlərin reallaşdırılması isə məktəblərdə pedaqoji kollektivlə yanaşı, tibb işçilərinin, xüsusilə profilaktika həkimlərinin mühüm vəzifələrindən biri olmalıdır. Bu cəhətdən təqdim olunan metodik tövsiyələr elementar tibbi biliklərin, sağlam həyat tərzini formalaşdırmaq üçün ilkin məlumatların, habelə gigiyenik anlayışların şagirdlərə aşılanmasını təmin etməyə yönəldilmiş ilk metodik vəsaitdir.

Bu tövsiyələr əhali arasında sağlam həyat tərzinin formalaşmasının təbliği sahəsində geniş təcrübəsi olan "Sağlam həyat tərzi uğrunda" kitabının müəllifi, professor M.Qasımov, uşaq və gənclərin qidalanmasının, tədrisinin və istirahətinin gigiyenik məsələlərini profilaktika həkimlərinə tədris edən dosentlər İ.Əhmədov və S.Gürzəliyev, habelə əhaliyə təcili təxirəsalınmaz tibbi yardım xidməti sahəsində böyük mütəxəssis, tibb elmləri namizədi F.Tağızadə tərəfindən tərtib edilmişdir.

Rafiq Yusifoğlu. Həsrət sazağı, Şərlər, Bakı, "Şirvannəşr", 2005-,—368 səh.

Görkəmli Azərbaycan şairi, tanınmış ədəbiyyatşünas, tərcüməçi, publisist, "Qızıl Qələm", "Vətən", "Araz", "İlin ən yaxşı kitabı", "Tofiq Mahmud" mükafatları laureatı Rafiq Yusifoğlu "Yurdum, yuvam", "Ətirli düymələr", "Ocaq yeri", "Aylı cığır", "Qəm karvanı", "Həsrət köçü", "Şirin yağış" (rus dilində), "Böyük arzuya gedən yol", "Çiçək yağışı", "Təzə sevdalara doğru", "Söz çəməni", "Ayrılığın qəm hasarı", "Günlərimiz, aylarımız" adlı şeir, "Bahar qatarı", "Şirin yuva" adlı nəsr, "Xatirə kecəvəsi", "Bir sevdalı ürəyim var" adlı publisistika kitablarının, "Azərbaycan poeması: axtarışlar və perspektivlər" monoqrafiyasının, "Kitabi-Dədə Qorqud" adlı komiksler toplusunun, "Ədəbiyyatşünaslığın əsasları", "Uşaq ədəbiyyatı", "Müasir ədəbi proses və ədəbi tənqid" dərsliklərinin müəllifidir. Müəllifin "Həsrət sazağı" kitabında isə onun son illərdə yazdığı həzin, kövrək şeirləri toplanmışdır. "Mənim Azərbaycanım", "Tərəzidir elin gözü", "Haqqın yolu", "Ömrüm-günüm", "Möcüzəli, sirli dünya", "Sevdalı diyar", "Sevgi yağışları", "Əsir ayrılığın soyuq yelləri", "Mənə məktub yazan ellər", "Ətən sevdaların həsrət nəğməsi" adlı bölmələre ayrılmış bu şeirlərdə saf məhəbbət, vüsal sevinci, həsrət nisgili, Vətən sevgisi, yurd həsrəti və b. başəri duyğular tərənnüm olunur.

Kitabın redaktoru filologiya elmləri doktoru Məhərrəm Qasımlıdır.

Гасан Гасанов. Цель истории (Философия истории политического генезиса человеческого общества), Баку, "Элм", 2004, 472 стр.



Uzun müddət dövlət strukturlarında müxtəlif vəzifələrdə çalışmış ictimai xadim, tarix elmləri namizədi Həsən Həsənovun bu monoqrafiyası Azərbaycanın fəlsəfə elmində insan cəmiyyətinin siyasi genezis tarixinin və dünya tarixinin mərhələlərinin tədqiqinə ilk təşəbbüsdür. Kitabda ayrı-ayrı mütəfəkkirlərin tarixi problemlər bərədə mülahizələri öz əksini tapıb. Həm də əsas məqsəd dünya tarixini yazmaq yox, onun aparıcı, prioritet prinsiplərinin mənalandırılmasıdır. Hər şeydən əvvəl, "tarixin məqsədini" tapmağa cəhd göstərilir. Qədim dövrlərdən bizim günlərədək bu məsələyə neçə baxılıb? Mədəniyyətlərin, sivilizasiyaların bir-birini əvəz etməsi hansı səbəbdən baş verir? Nə üçün bir sosial quruluş və dövlət qurumu dağılır, başqaları isə yaranır? Misir, Akkad, Yunan, Skif, Roma və bir çox başqa nəhəng imperiyaları və mədəniyyətləri formalaşdıran....dinlərinin öz aparıcı rollarını güzəştə getməsinin səbəbi nədir? İnsan cəmiyyətini bir çox əsrlər boyu idarə edən mənəvi dəyərlər necə yaranır və onlar öz aktuallığını itirəndə necə olurlar?

Müəllif sanballı tədqiqat əsərində bu suallara cavab tapmağa çalışır və tuturlı dəlillərlə, təkzibolunmaz faktlarla oxucusunu mülahizələrinin doğruluğuna inandıra bilir.

Nərgiz RÜSTƏMLİ,
"Respublika".

XALQA BAĞLI OLANDA

İlk təbib təbiətin özüdür, deyirlər. Doğrudan da, qədim yurdumuzun nadir təbiəti, dünyada mövcud olan 11 iqlim qurşağından doqquzunun Azərbaycanda olması füsunkar təbiətin canlı muzeyə çevrilməsində müstəsna əhəmiyyətə malikdir. Qafqazda bitən dərman bitkilərinin şöhrəti eramızdan əvvəl bəlli idi. Buzlaşmaya məruz qalmayan Lerik rayonunun fauna və florası, təbii iqlim şəraiti həmişə xarici alimlərin, məşhur səyyahların diqqətini cəlb etmişdir.

XIX əsrin məşhur botanik alimi, Yelenendorf şəhərindən olan F.Qoqenhager 1834-35-ci illərdə Lerik ərazisini—rayonun Çayrud, Veri, Rəzgov, Rvarud, Mastayil, Əvilə, Biləvər, Kəkonu kəndlərini gəzmiş, uca dağları seyr etmişdir. Alim rastlaşdığı güllərin, çiçəklərin, dərman bitkilərinin adlarını əvvəlcə Azərbaycan, sonra latın və rus dillərində qeyd etmiş, hər birinin insan həyatında nə kimi əhəmiyyəti olduğunu yazmış, onların xalq təbabətində, elmi təbabətdə istifadə qaydalarını və müalicəvi əhəmiyyətini göstərmişdir. Alimin Lerikdən topladığı bitki kolleksiyaları Rusiyanın Sankt-Peterburq şəhərinin Nəbatat Muzeyində indi də qorunub saxlanır.

Əsas tədqiqatı Qafqazın bitki örtüyü və bitki ehtiyatlarının öyrənilməsinə həsr olunmuş və bu bərədə üçcildlik "Azərbaycan florası" kitabının müəllifi Qrossheym Aleksandr Alfonosoviç Lerikdə, onun ucqar kəndlərində olmuş, qiymətli məlumatlar toplamışdır.

Qədim tarixə və bənzərsiz təbii gözəlliklərə malik olan dağların əteyində qərar tutmuş Lerik Azərbaycanın görkəmli təbiətşünas alimi, akademik Həsən Əliyevin də diqqətini cəlb etmişdir.

Torpaqşünaslıq, ümumi əkinçilik və təbiəti mühafizə üzrə görkəmli alim, kənd təsərrüfatı elmləri doktoru, professor, EA-nın akademiki, əməkdar elm xadimi, respublika Dövlət mükafatı laureatı Həsən Əliyev 80-ci illərdə Lerik rayonuna dəfələrlə gəlmiş, burada günlərlə yaşamış, dağ yamaclarında üzüm bağlarının salınmasında böyük əmək sərf etmişdi. Bununla yanaşı, Zuvand ərazisində badam bağlarının salınmasına nail olmuşdu. Üzümçülükdə əldə olunmuş gəlir region iqtisadiyyatının güclənməsinə güclü təkan vermiş, kənd adamlarının gün-güzərəninin yaxşılaşmasına, abadlığa gətirib çıxarmışdır. Təbiətən xeyirxah, böyük ürək sahibi, nüfuzlu ictimai xadim, ömrünü və elmi işlərini ətraf mühitin qorunmasına, torpaq və su ehtiyatlarından səmərəli istifadəyə həsr etmiş Həsən Əliyev "Həyəcan tabili" kitabında Lerik və Yardımlı rayonlarının ekoloji vəziyyətindən, iqtisadiyyatı gücləndirmək üçün görülən işlərdən, endemik ağac növlərindən, Qızılağac qoruğundan geniş söhbət açmışdır. Akademik ilk növbədə regionun zəngin flora və faunasını qorumağın vacibliyini ön plana çəkmişdir. Alim Lənkəran zonasını nəhəng bir botanika bağına, milli və zooloji parka, qoruğa çevirmək niyyətində idi. Lerik və Yardımlı rayonlarının iqtisadiyyatını yüksəltmək üçün oranın torpaq və iqlim şəraitindən səmərəli istifadə etməklə, bərəkətli torpaqlarda üzüm, qoz-fındıq, badam, püstə kimi gərəkli meyvə bağlarını salmağı vacib sayırdı, çay və sitrus bitkilərinə diqqəti artırmağı tövsiyə edirdi. Eroziyaya uğramış dağ yamaclarında otlaqları inkişaf etdirməklə ətlik qaramal - Kubadan gətirilmiş zebuların bəslənməsi bərədə dəyərli təkliflər vermişdi. Alim yazırdı: "Əfsanəvi dağların sirləri açılacaq, yüksək dağlarda, dərin dərələrdə seyrəlmiş meşələrin yeri fındıq, qoz bağlarına çevriləcək".

Təbiətşünas alim, torpaqlarımızın hər bir qarışına bələd olan Həsən Əliyev meşələrin indiyə qədər qırılmış sahələrində, meşə içərisində yalnız meşə ağacları əkməyi, cavan ağacları mal-qaradan qorumağı, qaramalın cinsini yaxşılaşdırmağı tövsiyə edirdi. O yazırdı: "Meşədən bir ağac da qırmaq olmaz. Elektrik mişarları olan şəxslər qanunsuz isti silah saxlayan adamlar kimi məsuliyyətə cəlb edilməlidir".

Həsən Əliyev Hamarat kəndi yaxınlığında bitən nadir Qaraçöhrə ağaclarının qorunub mühafizə edilməsinə böyük diqqət yetirmişdir. O özü burada olmuş, planetimizdə sayı bəlli olan, lakin nəsli kəsilməkdə olan Qaraçöhrə ağaclarının elmi əhəmiyyətini qeyd edərək onların təbiət abidəsi kimi qorunmasını təşkil etmişdir. Həmişəyaşıl ağac olan Qafqazda yeganə Qaraçöhrə meşəliyi bu gün də mühafizə olunur, qorunur. Blaband kəndində təcrübəli biologiya müəllimi Əliheydər Əliyevin məktəbdə yaratdığı "Təbiət və diyarşünaslıq muzeyi"nə akademik Həsən Əliyevin adı verilmişdir. Dilləvu dağının yamaclarında salınmış yaşıl parka da Həsən Əliyevin adı verilmişdir.

Bütün türk dünyasının qüdrətli oğlu, min ildə bir dəfə doğulan dahi, dövlətçiliyimizin təməl daşını qoyan, ömrünü Azərbaycan xalqının parlaq gələcəyinə həsr edən dövlət xadimi Heydər Əliyev dağ rayonlarına, xüsusilə də Lerikə böyük diqqət və qayğı göstərmişdir. Onun şəxsi təşəbbüsü ilə Moskvada dağ rayonlarının iqtisadiyyatını gücləndirmək üçün ayrıca qərar qəbul edilmişdir. Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə Lerik iqtisadi-sosial və mədəni cəhətcə inkişaf etmiş, geriliyin daşını atmışdı. Lerikə qaz xətti çəkilməsinin ilk təşəbbüsçüsü də məhz Heydər Əliyev olmuşdu.

Ötən il Heydər Əliyev siyasi idarəetmə məktəbinin ən layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyevin Lerik rayon ictimaiyyətilə görüşü əsl bayrama çevrildi. Prezident yenidən çəkilmiş 56 kilometrlik Lerik-Lənkəran yolunun açılış mərasimində iştirak etdi, rayon tarix-diyarşünaslıq muzeyi ilə, V.İbrahimov adına Lerik qəsəbə orta internat məktəbi ilə tanış oldu, kənd təsərrüfatı məhsulları sərgisinə baxdı. Dahi öndərimiz Heydər Əliyevin büstünün açılış mərəsimində iştirak etdi, rayonun ağsaqqalları, ziyalıları ilə görüşdü. Regionların sosial-iqtisadi inkişafı dövlətin siyasətinin əsas istiqamətidir və bu siyasət gələcəkdə də davam etdiriləcəkdir, - deyən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın hər bir bölgəsi, hər bir kəndi inkişaf etməlidir. Biz ziyalılar bu inkişafın əməli təcəssümünü görürük. Prezidentin göstərişinə və 14 sentyabr 2005-ci il tarixli sərəncamına əsasən, Lerikə mavi qaz xətti, rayona 110 min kilovoltluq yeni elektrik hava xətti, Lerik qəsəbəsinə alternativ su kəməri çəkiləcək, rayonda 12 məktəb tikiləcək, tədris və məktəbəqədər müəssisələrin tikintisinə, əsaslı təmirinə diqqət artacaqdır. Yüksəkliyə görə əhaliyə kompensasiya ödənilməsi, İrana sadələşdirilmiş sərhəd-keçid məntəqəsinin açılması nəzərdə tutulmuşdur. Bütün bunlar biz ziyalıları hədsiz ruhlandırır, Azərbaycanın parlaq gələcəyinə inamı artırır. Azərbaycanın Qafqazda lider ölkəyə çevrilməsində cənab İlham Əliyevin gərgin fəaliyyəti böyük rol oynayıb.

Əminliklə deyə bilərik ki, xalqımız 2006-cı ildə yeni-yeni uğurların şahidi olacaq, dövlətçiliyimizin, ölkənin iqtisadi və müdafiə qüdrətinin artması üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Gülab ABBASOV,
Lerik rayonu Rvarud kənd orta məktəbinin müəllimi.

SƏHİYYƏ NAZİRLİYİ ÖLKƏDƏ QUŞ QRİPİNİN YAYILMASINA QARŞI KOMPLEKS TƏDBİRLƏR GÖRÜR

Səhiyyə Nazirliyi ölkədə quş qripinin yayılmasına qarşı kompleks tədbirlər görür. Bakı Şəhər Baş Səhiyyə İdarəsinin rəhbəri Leyla Seyidbəyova mətbuat konfransında bildirmişdir ki, nazirlikdə dezinfeksiya preparatları, habelə bu xəstəliyin müalicəsində ən səmərəli vasitə olan 550 qutu "Tamiflyu" dərmanı ehtiyatı yaradılmışdır. Quş qripinə yoluxması güman edilən xəstələrin qəbulu üçün Elmi-Tədqiqat Ağ Ciyər Xəstəlikləri İnstitutunda və 7 nömrəli şəhər infeksion xəstəxanasında palatalar hazırlanmışdır. Səhiyyə Nazirliyi artıq Rusiyadan xüsusi dezinfeksiya avadanlığı—9 maşın və 200 püskürdücü aparat, habelə xəstə quşların leşlərini məhv etmək üçün maşın almışıq. Bakı Şəhər Səhiyyə İdarəsində, Respublika Gigiyena və Epidemiologiya Mərkəzində, Dövlət Baytarlıq Xidmətində "qaynar xətlər" fəaliyyətə başlamışdır. Əhali bu "xətlər" vasitəsilə xəstəliyin profilaktikası barədə məlumat ala, ev quşlarının mümkün yoluxma halları bərədə məlumat verə bilər.

Səhiyyə Nazirliyinin baş epidemioloqu, professor İbadulla Ağayev bildirmişdir ki, hazırda Azərbaycanda insanın quş qripinə yoluxması halı qeydə alınmamış, yalnız Abşeron yarımadasında su quşlarında infeksiya aşkar edilmişdir. Azərbaycan vətəndaşlarından götürülmüş və Dünya Səhiyyə Təşkilatının Qahirədəki laboratoriyasına göndərilmiş qan nümunələrində quş qripi infeksiyası tapılmamışdır. Səhiyyə nazirinin əmri ilə akademik V.Axundov adına Milli Tibbi Profilaktika İnstitutunda və Respublika Gigiyena və Epidemiologiya Mərkəzində bir neçə gün ərzində yüksək hərarət müşahidə ediləcək xəstələrdən qan nümunələri götürüləcəkdir. Qan nümunələri analiz üçün Qahirə laboratoriyasına göndəriləcəkdir.

AzərTAc

ŞƏKİ-ZAQATALA BÖLGƏSİ RAYONLARINDA "QUŞ QRİPİ" İLƏ BAĞLI MONİTORİNQLƏR DAVAM EDİR

9 saylı Ərazi Ekologiya və Təbii Sərvətlər Şöbəsindən bildirmişlər ki, "quş qripi"nin yayılmasının qarşısını almaq məqsədi ilə şöbə tərəfindən xidməti ərəziyə daxil olan Balakən, Zaqatala, Qax, Şəki və Oğuz rayonlarında kompleks profilaktik tədbirlər, monitorinqlər keçirilmesi ardıcıl davam etdirilir. Tədbirlərə rayonların səhiyyə şöbələrinin, gigiyena və epidemiologiya mərkəzlərinin və baytarlıq idarələrinin mütəxəssisləri qatılırlar.

"Quş qripi" virusunun respublikamızın şimal-qərb istiqamətindən ölkə ərazisinə keçməsinin qarşısını almaq məqsədi ilə Balakən sərhəd keçid məntəqəsində quş əti və məhsullarının gətirilməsinə nəzarət gücləndirilmiş, bölgədəki rayonlarda köçəri quşların ovlanması və satışı qadağan olunmuşdur.

Şöbənin ətraf mühitin mühafizəsi və monitorinqi sektorları mütəxəssislərinin iştirakı ilə hazırda sututarlarda, axmazlarda, əyriçay və Mingəçevir su anbarlarında çöl quşları arasında xəstəliyin vaxtında aşkar ediməsi üçün monitorinqlər keçirilir, xəstəliyin profilaktikası məqsədi ilə yaşayış məntəqələrində əhali arasında geniş sanitariya-maarifləndirmə işləri aparılır.

İnzibati ərazidən axan Qanıx (Alazan) çayının sol sahilində yerləşən yaşayış məntəqələrində, o cümlədən Balakən rayonunun Kortala və İtitala kəndlərində, Zaqatala rayonunun Aşağı Çardaxlar, Bəhmətli, Faldarlı və Kəpənəkçi kəndlərində, Qax rayonunun Almalı və Şıxlar kəndlərində, habelə Şəkinin 3 və Oğuz rayonunun 4 yaşayış məntəqəsində aparılan monitorinqlərin nəticələrinə görə, bu ərazilərdə xəstəliyə yoluxma faktı hələlik qeydə alınmamışdır.

Hazırda inzibati ərazidə monitorinqlərin keçirilməsi davam etdirilir.

AzərTAc

Quba şəhər sakini İlyasov Elşən Semiyar oğlunun adına verilmiş Torpağa Mülkiyyət Hüququna dair 627 saylı Dövlət Aktı (Kod 3030/004) itdiyi üçün etibarsız sayılır.

Səbail rayonu, Badamdar qəsəbəsi, Cəmil Hasılov küçəsi 115, mənzil 32-də yaşayan Məmmədova Gülçöhrə Aslan qızının adına verilmiş qeydiyyat vəsiqəsi (kupça) itdiyi üçün etibarsız sayılır.

Səhiyyə Nazirliyi Tender Komissiyasının BİLDİRİŞİ

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi 14 mart 2006-cı ildə keçiriləcək tenderin lotlar siyahısında dəyişiklik edərək 6-cı Lot "Tibbi avadanlıqlar" üzrə satınalmaların keçirilməyəcəyini bildirir.

Tender Komissiyası.

MÜDAFİƏ NAZİRLİYİNİN BİLDİRİŞİ

Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən lot-1 (tərəvəz məhsulları) Gəncə zonası üzrə təkliflər sorğusu üsulu ilə satınalma həyata keçirilir.

Lot-1. Tərəvəz məhsulları (kartof, kələm, soğan, yerkökü, çuğundur, sarımsaq).

Tenderdə iştirak etmək istəyənlər 18.02.2006-cı il tarixə saat 15.00-dək 300 AYM məbləğində iştirak haqqını köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

Hesab: Azərbaycan Beynəlxalq Bankı, Mərkəzi filialı, kod 805722, VÖİN 9900001881, müxbir hesabı N 0137010002031. SWIFT. BİK: İBAZ AZ2X; Mərkəzi Orqanlar üzrə Xəzinə İdarəsi, Hesab N-si cor 328518 AZM 3201-01 VÖEN 1700341881; Şəxsi/hesab 06021 hesab VÖEN 1300162621, Müdafiə Nazirliyinin tenderində iştirak haqqı. İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tender iştirakçıları müqavilənı yerinə yetirmək üçün lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Bütün iddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün ərizə (ərizədə müəssisənin adı, yerləşdiyi ünvanı, poçt indeksi, telefon nömrəsi, rəhbərinin adı, soyadı göstərilməklə möhürlənmiş və imzalanmış olmalıdır).
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi (əsli).
3. Tender təklifi (tender proseduru keçirildiyi tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).
4. Tender təklifi qiymətinin 3 faizi həcmində bank təminatı (tender proseduru keçirildiyi tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır) tender təklifi ilə birlikdə təqdim olunur. Bank təminatını tender zərfində təqdim etməyən iddiaçının tender təklifi etibarsız sayılır və qiymətləndirilməyə buraxılmır.
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında (müvafiq orqanlardan) arayış.
6. İddiaçının son bir ildə (əgər daha az müddətdə fəaliyyət göstərirsə, bütün fəaliyyət müddətində) maliyyə vəziyyəti haqqında bank arayışı.
7. İddiaçının son bir ildə fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (forma N 1 və forma N 2).
8. İşləri yerinə yetirmək üçün analoji işlərdə təcrübəsi, iddiaçının potensial texniki və kadr imkanları haqqında rəsmi məlumat.
9. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (notariusdan təsdiq edilmiş surəti).

İddiaçılar tələb olunan sənədləri bir nüsxədə hazırlayıb 18 fevral 2006-cı il tarixədək saat 15.00-a qədər, tender təkliflərini isə iki nüsxədə (əsli və surəti) 20 fevral 2006-cı il tarixədək saat 15.00-a qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə Müdafiə Nazirliyinin Nəzarət Buraxılış Məntəqəsinin qarşısındakı 4 saylı doqquzmərtəbəli binanın birinci mərtəbəsində yerləşən Tender Komissiyasının otağında əlaqələndirici şəxslərə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan və ya poçt vasitəsilə göndərilən tender təklifləri qəbul olunmayaraq geri qaytarılacaqdır.

Tender zərflərinin açılması proseduru Müdafiə Nazirliyinin Mərkəzi Zabitlər Evində (Bakı şəhəri, S.Vurğun küçəsi 12 ünvanda) 21 fevral 2006-cı il tarixdə saat 10.00-da keçiriləcəkdir.

Tender "Dövlət satınalmaları haqqında" qanunun tələblərinə uyğun keçiriləcəkdir.

Tender haqqında əlavə məlumatları aşağıdakı ünvandan almaq olar:

Bakı şəhəri, Parlament prospekti-3.
Müdafiə Nazirliyinin Tender Komissiyası.
Əlaqələndirici şəxslər: A.Nəcəfov, Ş.Baxşıyev.
Tel.: 439-49-43, daxili 22-94.

Müdafiə Nazirliyinin Tender Komissiyası.

İŞÇİ TƏLƏB OLUNUR

Middle East Petroleum Şirkətində baş mühasib və baş mühasibə köməkçi mühasib tələb olunur.

Tələb olunan xüsusiyyətlər:

- *Azərbaycan Respublikası vergi qanunvericiliyi ilə işləmiş olmaq*
- *ən az 5 il təcrübə*
- *25-35 yaşlarında olmaq*

Müraciet üçün fotoşəkilli CV-lərinizi mepf.com ünvanına göndərə bilərsiniz.

ALLAH RƏHMƏT ELƏSİN

"Respublika" qəzetinin kollektivi Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin birinci müavini, Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyinin baş direktoru Əhməd Əhmədzadəyə, qayınanası

MÖMİNƏT xanımın

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Abasov, nazirliyin kollegiya üzvləri, nazirlik sisteminin bütün işçiləri adından nazirin birinci müavini, Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyinin baş direktoru Əhməd Əhmədzadəyə, qayınanası

MÖMİNƏT xanımın

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Abbas, Qurban, Mehriban və Xaqan Abbasovlar, Afərim, Bayram, Zülfüqar, Leyla və Mövsüm Mövsümovlar, Adışirin, Nazilə, Mətanət və Qoşqar Quliyevlər Xanhəsən Eynullayevə, həyat yoldaşı

MƏHƏBBƏT xanım NUH qızının

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: 439-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 441-20-24;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 439-26-18;
Humanitar siyasət redaksiyası: 438-25-70;
Xəbərlər redaksiyası: 438-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 439-95-51; 438-43-41 tel/faks;
Qəbul otağı: 438-25-70;
Katiblik: 438-25-70;
Reklam və elan xidməti: 441-20-23.

● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica.news.az

"Respublika" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 7920
Sifariş 485

Qəzetin abunə qiyməti 700 AZM (14 qəpik (AYM)), satış qiyməti 950 AZM (19 qəpik (AYM)).

Məsul növbətçi
Tofiq ƏBDÜLHƏSƏNLİ

● Çapa imzalanmışdır
11.02.2006